"Bizim ailəmiz türk dünyasıdır"

Türk Dövlətləri Təşkilatı (TDT) müasir türk dünyasının inteqrasiyasını təşviq edən mühüm beynəlxalq platformalardan biridir. 3 oktyabr 2009-cu ildə Naxçıvan Muxtar Respublikasında əsası qoyulan təşkilat Azərbaycanın xarici siyasətində xüsusi əhəmiyyət kəsb edir. Ölkəmiz TDT ilə münasibətlərini hər zaman prioritet kimi qəbul edərək bu çərçivədə əməkdaşlığı daim genişləndirir.

Azərbaycanın təşkilat çərçivəsində aktiv fəaliyyəti siyasi, iqtisadi, həm də mədəni inteqrasiyasının daha da dərinləşməsinə xidmət edir. TDT üzvü olan dövlətlərlə geniş əlaqələr ölkəmizin regiondakı mövqeyini gücləndirir və beynəlxalq arenada daha fəal çıxış etməsinə şərait yaradır.

Prezident İlham Əliyevin TDT daxilində irəli sürdüyü təklif və təşəbbüslər təşkilatın funksionallığını artırmaqla yanaşı, üzv dövlətlər arasında əlaqələrin daha da möhkəmlənməsinə töhfə verir. Ölkəmizin təşəbbüsü ilə təşkil olunan tədbirlər və strateji layihələr bu platformanın nüfuzunu artırır. Enerji təhlükəsizliyi, nəqliyyat-kommunikasiya dəhlizlərinin yaradılması və iqtisadi inteqrasiya sahələrində ölkəmiz öz təcrübəsi ilə TDT ölkələrinə dəstək göstərir. Xüsusilə Zəngəzur dəhlizi layihəsi region üçün strateji əhəmiyyətə malikdir və türk dövlətləri arasında ticarət və nəqliyyat əlaqələrinin genişlənməsinə xidmət edəcək.

Dövlət başçısı İlham Əliyev Türk dövlətləri ilə münasibətlərin möhkəmləndirilməsini ölkənin xarici siyasətinin əsas prioritetlərindən biri elan edib. Prezident İlham Əliyevin qurumun fəaliyyətini dəstəkləyərək TDT Katibliyinə 2 milyon, Ağsaqqallar Şurasına isə 100 min ABŞ dolları məbləğində maliyyə vəsaiti ayırması təşkilatın potensialının gücləndirilməsinə töhfə vermişdir. Dövlət başçısı TDT-ni əsas beynəlxalq təşkilat kimi qiymətləndirir və qeyd edir ki, bizim başqa ailəmiz yoxdur. Bizim ailəmiz türk dünyasıdır.

Prezident İlham Əliyev Türk dövlətləri ilə əlaqələrin möhkəmləndirilməsi istiqamətində fəal xarici siyasət yürüdür. Son iki il ərzində dövlət başçısı TDT-yə üzv və müşahidəçi dövlətlərə 20 səfər həyata keçirmiş, eyni zamanda qardaş dövlətlərin rəhbərləri də Azərbaycana çoxsaylı səfərlər etmişlər.

Ötən il iyulun 6-da Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərində keçirilən Türk Dövlətləri Təşkilatının (TDT) "Nəqliyyat, bağlantı və iqlim fəaliyyəti vasitəsilə dayanıqlı gələcəyin qurulması" mövzusunda qeyri-rəsmi Zirvə görüşündə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev, Qırğız Respublikasının Prezidenti Sadır Japarov, Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev, Macarıstanın Baş naziri Viktor Orban, Türkiyə Respublikasının vitse-prezidenti Cevdet Yılmaz, Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ersin Tatar, Türk Dövlətləri Təşkilatının Baş katibi Kubanıçbek Ömüralıyev iştirak etmişlər. Görüşün sonunda imzalanan "Qarabağ Bəyannaməsi" Türk dövlətləri arasında əməkdaşlığın gücləndirilməsi və birgə fəaliyyətin genişləndirilməsi istiqamətində mühüm addım hesab olunur. Görüşdə Orta Dəhlizin ayrılmaz hissəsi olan Bakı-Tbilisi-Qars dəmir yolunun illik yükaşırma qabiliyyətinin Azərbaycanın əlavə sərmayəsi nəticəsində 1 milyondan 5 milyon tona çatdırılmasının Asiya və Avropa arasında yükdaşımaların artırılmasında strateji rol oynadığı qeyd olunmuşdur. Bundan əlavə, Xəzər dənizində 50-dən çox ticarət gəmisinə sahib olan Azərbaycan Türk dövlətləri üçün önəmli tranzit xidmətləri göstərir. Artan yükdaşımaları nəzərə alaraq Bakı Gəmiqayırma zavodunda bir çox yeni gəmi inşa edilir. Həmçinin bu il Laçında ölkənin doqquzuncu beynəlxalq hava limanı istismara veriləcək. Ələt Beynəlxalq Ticarət Limanının yükötürmə qabiliyyəti 15 milyon tondan 25 milyon tona qədər genişləndiriləcək.

Enerji sahəsində strateji tərəfdaşlıq, o cümlədən bərpaolunan enerji və enerji səmərəliliyi sahəsində əməkdaşlıq Türk dövlətləri arasında mühüm istiqamətlərdəndir. Həmçinin Xəzər dənizi vasitəsilə Azərbaycan ərazisindən Avropa və Asiya arasında fiber-optik telekommunikasiya marşrutu yaratmaq məqsədi daşıyan "Rəqəmsal İpək Yolu" layihəsi də mühüm təşəbbüslərdəndir. Prezident İlham Əliyev ötən il avqustun 9-da Qazaxıstanın paytaxtı Astanada Mərkəzi Asiya və Azərbaycan Respublikasının Dövlət Başçılarının görüşündə iştirakı zamanı da həyata keçirilən "Rəqəmsal İpək Yolu" layihəsi rəqəmsal infrastrukturun inkişafına və rəqəmsal təhlükəsizliyə töhfə verəcəyini bildirib.

Azərbaycanın işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur bölgələrinin bərpası və yenidən qurulması prosesi dövlətimiz üçün strateji əhəmiyyət daşıyır. Bu ərazilərin iqtisadi, sosial və mədəni inkişafının təmin edilməsi istiqamətində həyata keçirilən genişmiqyaslı layihələrdə türk şirkətləri Qarabağın bərpasında fəal iştirak edirlər. Bu, bir daha göstərir ki, tarixi və mədəni bağlarla birləşən türk dövlətləri çətin anlarda bir-birilərinin yanındadırlar. Qardaş Türkiyə Qarabağın yenidənqurulmasında ən fəal iştirak edən ölkələrdən biridir. Azərbaycan və Türkiyə arasında formalaşmış strateji tərəfdaşlıq Qarabağdakı bərpa işlərinə də müsbət təsir göstərir. Türkiyə şirkətləri Füzuli Beynəlxalq Hava Limanının inşası, Zəngilan rayonunda nəqliyyat və logistik mərkəzlərin qurulması kimi irimiqyaslı layihələrdə iştirak ediblər. Bu infrastruktur layihələri Qarabağın regional əhəmiyyətini artıraraq bölgənin iqtisadi potensialını daha da genişləndirir. Eyni zamanda Türkiyə şirkətləri enerji sektorunda da Qarabağın inkişafına dəstək verirlər. Müasir enerji həllərinin tətbiqi bölgədə iqtisadi aktivliyin yüksəlməsinə şərait yaradır. Ötən ilin rəqəmlərinə nəzər salsaq Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında aparılan əhəmiyyətli quruculuq işlərində qardaş Türkiyə 20-dən çox şirkətlə 50-yə yaxın layihəni uğurla həyata keçirir. Bu bərpa və quruculuğun ümumi dəyəri 4 milyard ABŞ dollarını təşkil edir.

Özbəkistan və Qazaxıstan da Qarabağın bərpası prosesinnə öz töhfələrini verirlər. 2023-cü il avqustun 23-də Prezidentlərin iştirakı ilə açılışı edilən Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəb bölgənin sosial həyatına yeni dinamika gətirdi. Qazaxıstan isə Şuşada yaradıcılıq mərkəzi tikərək Azərbaycanın mədəni irsinin qorunmasına və inkişafına dəstək göstərir.

Bütün bu nailiyyətlərdə Prezident İlham Əliyevin uzaqgörən siyasəti və liderliyi xüsusi əhəmiyyət kəsb edir. Dövlət başçısının təşəbbüsləri sayəsində Qarabağın yenidənqurulması məsələsi Türk Dövlətləri Təşkilatının diqqət mərkəzinə gətirilir və qardaş ölkələr bu prosesə cəlb olunurlar. Prezident İlham Əliyevin xarici siyasətində Türk dövlətləri ilə əməkdaşlıq hər zaman xüsusi yer tutur. Bütün bu diplomatik uğurlar nəticəsində Azərbaycan regionda strateji mövqeyini daha da möhkəmləndirir.

Ötən il noyabrın 6-da Qırğızıstanın paytaxtı Bişkek şəhərində Türk Dövlətləri Təşkilatının (TDT) növbəti Zirvə görüşü keçirilmişdir. Bu əlamətdar tədbirdə Azərbaycan Prezidenti İlham Əliyev də iştirak etmişdir. Zirvə görüşü TDT-nin əsası olan Naxçıvan Sazişinin 15-ci ildönümünə təsadüf edirdi. 2009-cu ildə Naxçıvanda imzalanan saziş Türk dövlətləri arasında siyasi, iqtisadi və mədəni əlaqələrin inkişafında mühüm rol oynamışdır. 15 il ərzində təşkilat üzv ölkələr arasında əməkdaşlığın dərinləşməsinə və birgə layihələrin həyata keçirilməsinə şərait yaratmışdır.

Bişkek Zirvə görüşündə Türk dövlətlərinin birliyi və əməkdaşlığı müxtəlif sahələrdə özünü göstərmişdir. İqtisadiyyat, enerji, nəqliyyat, mədəniyyət və təhsil kimi sahələrdə birgə layihələrin həyata keçirilməsi müzakirə edilmişdir. Xüsusilə Şərq-Qərb nəqliyyat dəhlizinin inkişafı və bu marşrutun rəqabət qabiliyyətinin artırılması məsələləri diqqət mərkəzində olmuşdur. Prezident İlham Əliyev Türk dövlətləri arasında birliyin və əməkdaşlığın əhəmiyyətini vurğulayaraq Azərbaycanın bu istiqamətdə atdığı addımlardan bəhs etmiş, Naxçıvan Sazişinin, 15 il ərzində Türk dünyasının inteqrasiyasında oynadığı rolu yüksək qiymətləndirmişdir.

Bu il isə Azərbaycan TDT-nin Zirvə görüşünə ev sahibliyi edəcək. Bu mühüm tədbirin Bakıda keçirilməsi, ölkəmizin növbəti uğurudur. Bu barədə məlumat yanvarın 29-da Ankarada keçirilən Türkiyə, Azərbaycan və Özbəkistan xarici işlər nazirlərinin birgə mətbuat konfransında açıqlanıb. Görüşdə Türkiyənin xarici işlər naziri Hakan Fidan, Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və Özbəkistanın xarici işlər naziri Baxtiyor Saidov iştirak edib. Nazirlər üç ölkə arasında siyasi, iqtisadi və mədəni əlaqələrin inkişafını müzakirə edərək Zirvə görüşünün əhəmiyyətini vurğulayıblar.

TDT-nin Zirvə görüşü üzv ölkələr arasında siyasi dialoqun dərinləşdirilməsi, iqtisadi əlaqələrin genişləndirilməsi və mədəniyyət sahəsində əməkdaşlığın artırılması üçün yeni imkanlar yaradacaq. Xüsusilə nəqliyyat və enerji sahələrində birgə layihələrin müzakirəsi və həyata keçirilməsi regionun inkişafına və rifahına xidmət edəcək.

Ləman TƏHMƏZ,
"Respublika".